# Həftəlik *Bülleten*



**067**

**1 Noyabr 2024**

- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və layihələr
- Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**Azərbaycan Düşənbədə keçirilən birinci beynəlxalq dağ-mədən və metallurgiya forumunda təmsil olunub.**

Düşənbədə ilk beynəlxalq investisiya dağ-mədən və metallurgiya forumu işə başlayıb. Tədbirin rəsmi saytına istinadla xəbər verilir ki, forumda Tacikistan, Azərbaycan, Özbəkistan, Qırğızıstan, Rusiya və digər ölkələrin sənaye nazirləri iştirak ediblər. Beş sessiyadan ibarət tədbirdə geologiyanın iqtisadiyyatın inkişafına verdiyi töhfə və Tacikistanda mineral ehtiyatların potensialı müzakirə olunub. Bildirilib ki, ölkədə 800 nadir faydalı qazıntı və qiymətli metal yatağı aşkar edilərək işlənməyə hazırlanıb. Forumda 30-dan çox məruzəçi və müzakirə iştirakçısı çıxış edib. Həmçinin beynəlxalq investorlar filizin inkişafı və emalı üçün qabaqcıl texnologiyalar və avadanlıqlar təqdim edib, mədənçıxarma üçün yeni həllər təqdim nümayiş etdirib. Forum çərçivəsində bir sıra beynəlxalq memorandum imzalanıb. Qeyd edək ki, forum Tacikistan tarixində dağ-mədən və metallurgiya sahəsində ilk aparıcı tədbirdir.



**Qazaxıstanın tikinti şirkətləri Azərbaycanda investor kimi iştirak etməkdə maraqlıdır.**

Mənzil İnşaatı Dövlət Agentliyinə (MİDA) istinadən xəbər veriilir ki, bunu Qazaxıstanın Azərbaycandakı səfiri Alim Bayel bildirib. Agentlikdə onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Prezident İlham Əliyevin ölkə vətəndaşlarının mənzil-məişət şəraitinin yaxşılaşdırılmasını və güzəştlə mənzil əldə etmələrinə (uyğun qiymətə mənzil təminatına) şərait yaradılmasını MİDA-nın qarşısında prioritet vəzifə kimi qoyduğunu qeyd edən İdarə Heyəti sədrinin müavini Elşad Məmmədov qurumunun əsas fəaliyyət istiqaməti barədə məlumat verib. Görüşdə, həmçinin Agentliyin icra etdiyi tikinti layihələri, güzəştli mənzilin üstünlükləri, mənzillərin əldə edilməsi qaydası, “Elektron hökumət” portalında (www.e-gov.az) yaradılmış “Güzəştli mənzil” sistemi haqqında məlumatları özündə əks etdirən təqdimat dinlənilib. Səmimi qəbul üçün minnətdarlığını bildirən səfir ölkələrimiz arasında mövcud əlaqələrin yüksək səviyyədə olduğunu, dövlət başçılarının qarşılıqlı səfərlərinin ikitərəfli münasibətlərin inkişafına əhəmiyyətli töhfə verdiyini qeyd edib. O, Azərbaycanla müxtəlif sahələr üzrə əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük potensialın olduğunu vurğulayıb. Görüşdə tikinti sahəsində qarşılıqlı əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb, nümayəndə heyətinin üzvlərini maraqlandıran suallar cavablandırılıb.



**Azərbaycanda bu il 2,3 milyon ton çınqıl istehsal olunub - 66%- LİK ARTIM**

2024-cü ilin yanvar-sentyabr ayları ərzində Azərbaycanda 2 milyon 332,8 min ton çınqıl istehsal edilib.

Bu barədə Dövlət Statistika Komitəsinə istinadən xəbər verir.

Məlumata görə bu 2023-cü ilin yanvar-sentyabr ayları ilə müqayisədə 925,3 min ton və ya 65,7% çoxdur.

Belə ki, 2023-cü ilin 9 ayı ərzində Azərbaycanda 1 milyon 407,5 min ton çınqıl istehsal edilmişdi.



## Belçikanın ailə şirkəti Azərbaycanda filialını yaradıb

Belçikanın ailə şirkəti "Jan De Nul Group" Azərbaycanda filialını yaradıb. Azərbaycanın Dövlət Vergi Xidməti "JAN DE NUL NV AZƏRBAYCAN RESPUBLİKASINDAKI FİLİALI"nı dövlət qeydiyyatına alıb.

Filialın hüquqi ünvanı: AZ1065, BAKI ŞƏHƏRİ NƏSİMİ RAYONU, TBİLİSİ PR ev.35, qanuni təmsilçi: DEVOLDER TIM (Belçika Krallığı) adlı şəxsdir.

"Jan De Nul Qrup"u beynəlxalq miqyasda dəniz infrastrukturunun tikintisi və saxlanması ilə bağlı xidmətlər göstərən, maliyyə mərkəzi Lüksemburqda olan Belçikanın ailə şirkətidir. Şirkət mülki mühəndislik və ətraf mühit texnologiyaları üzrə də xidmətlər göstərir.



## Ər-Riyadda dünyada ən böyük bina tikiləcək.

Ər-Riyadda dünyada ən böyük binanın tikintisinə başlanılıb. Düzünü desək, dəbdəbəli Mukaabı göydələn adlandırmaq olmaz, çünki o, qala olmayacaq. Səudiyyəlilərin möhtəşəm layihəsi qızılı rəngli nəhəng kubdur: onun uzunluğu, eni və hündürlüyü hər biri 400 metr olacaq. Futuristik bina o qədər böyük olacaq ki, Nyu-Yorkun 20 məşhur "Empire State Building" binasını sığdıra biləcək. Bu binanın çoxfunksiyalı, faktiki olaraq tam mükəmməl bir şəhər olması diqqətəlayiqdir. Burada təkcə ofislər, ticarət obyektləri və istirahət zonaları deyil, həmçinin 9 min mehmanxana nömrəsi olacaq. Mukaabda daimi məskunlaşmaq istəyənlər üçün isə 104 min mənzil nəzərdə tutulacaq. Tərtibatçının vədləri təsiredici görünür: bir addımlıq məsafədə əlçatan olan yaşıl sahələr və nəhəng LED ekranlardan dəbdəbəli xarici dekorasiya Səudiyyə kubunu sənət əsərinə çevirəcək.

Bu ideya səudiyyəlilərə 50 milyard dollara başa gələcək. Çoxmərtəbəli binanın yaradılmasında 900 işçi çalışacaq. Tikintinin 2030-cu ilə qədər başa çatdırılması planlaşdırılır. Çoxmərtəbəli binanın tərtibatçıları əmindirlər ki, onların kubu "Riyadın yeni siması" olacaq.



## Ağdağ Ustalar Qrupunun Naxçıvan şəhərində "MATANAT A" şirkətlər qrupunun istehsal etdiyi məhsulların təqdimat tədbiri baş tutmuşdur.

Matanat A Ustalar Klubuna daxil olan Ağdağ Ustalar Qrupunun Naxçıvan şəhərində, Azərbaycanın və regionun inşaat materialları bazarında liderliyini qoruyub saxlayan "MATANAT A" şirkətlər qrupunun istehsal etdiyi məhsulların təqdimat tədbiri baş tutmuşdur. Tədbir zamanı şirkətin Müştəri Loyallığı şöbəsinin müdiri, Əkbər Dostumalıyev öz çıxışında şirkətin inkişaf yolu və gələcək məqsədləri ilə bağlı məlumat verib. Eyni zamanda "Ağdağ Natural Gipskarton Lövhələri"nin üstünlükləri, "AĞDAĞ" məhsulları, bunlardan əlavə şirkətin istehsal etdiyi ROKOL boya və digər boya məhsulları haqqında ustalara ətraflı məlumat verildi. Verilən məlumatlar, təşkil olunan master klasslar iştirakçılar tərəfindən dərin rəğbətlə qarşılandı. Kluba üzv olan ustaların birbaşa iştirakı ilə master klass həyata keçirildi. Şirkətin istehsal etdiyi məhsulları test edərək keyfiyyəti ilə daha yaxından tanış olub, öz müsbət fikirlərini bildirdilər.





**Matanat A Şirkətlər Qrupunun Ustalar Klubu fəaliyyətini uğurla davam etdirir.**

Matanat A Şirkətlər Qrupunun Ustalar Klubu fəaliyyətini uğurla davam etdirir.

Belə ki, kluba üzv olan ustalarla kommunikasiya prosesinin sürətləndirilməsi və operativliyin daha da artırılması üçün xüsusi addımlar atılır.

Proses çərçivəsində Bakı şəhərində Ustalar Klubunun idarə heyəti, MATANAT A Şirkətlər Qrupunun kommersiya üzrə vitse-prezidenti Fuad Bəşirov və regionalardan olan nümayəndələrin bir qrupu arasında görüş həyata keçirildi, yeni məhsul və texnalogiyalar barədə ətraflı məlumatlar verildi.

Görüş zamanı regionlardakı ümumi vəziyyət və faydalı məlumatlar haqqında müzakirələr aparıldı. Şirkətin yenidən qurulan SHOW ROOM-da istehsal olunan məhsul nümunələrinin təqdimatı ilə görüş yekunlaşdı.






# ANONS

**Hörmətli sahibkarlar!**

Hörmətli sahibkarlar,Azərbaycan Respublikası Milli Məclisinin deputatı, iqtisad elmləri doktoru, ATMİA-nın Fəxri üzvü, akademik Ziyad Səmədzadə ilə sahibkarların görüşünü planlaşdırırıq. Görüş zamanı müəllifin “Qarabağ İqtisadiyyatı 100 ildə” 5 cildlik ensklopedik kitabının imzalanma mərasimi olacaq.
İştirak üçün öncədən qeydiyyat zəruridir!
Tel.: 0502653634



**Hörmətli sahibkarlar!**

Rusiyanın lider lift istehsalçısı Şerbinski Lift Zavodunun nümayəndələri ilə onlayn görüş planlaşdırılır. Zavodun istehsal etdiyi liftlər Moskva Kremlində, Rusiya nazirliklərin binalarında, həmçinin, Sayana-Şuşenski QES və digər əhəmiyyətli obyektlərdə quraşdırılıb. Lift zavodu ilə onlayn görüşdə maraqlı olanlar 010-250 03 24 nömrə ilə əlaqə saxlaya bilərlər.

anons

# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: CONSTRUCTEC 2024**
**Tarixlər: 05 - 08 noyabr 2024-cü il,**
**Məkan: Ifema - Parque Ferial Juan Carlos I, Madrid (İspaniya)**
İnşaat Materialları və Tikinti Həlləri Sərgisi üzrə Beynəlxalq Ticarət Sərgisi

**Sərginin adı: ARCHITECT @ WORK - GERMANY - BERLIN 2024**
**Tarixlər: 06 - 07 noyabr 2024-cü il,**
**Məkan: The Station Berlin, Berlin (Almaniya)**
Memarlıq və İnteryer Dizayn Sərgisi. ARCHITECT@WORK sizə aşağıdakılarla əlaqə saxlamaq imkanı verir: memarlar, daxili memarlar, dizaynerlər, mühəndislik büroları, layihə tərtibatçıları, texniki xidmətlər, şəhər və rayon şuraları.

**Sərginin adı: BUILDEXPO UZBEKISTAN 2024**
**Tarixlər: 2024-cü ilin Noyabrında**
**Məkan: Uzexpocentre, Daşkənd (Özbəkistan)**
Beynəlxalq İxtisaslaşdırılmış Tikinti Sənayesi Sərgisi

**Sərginin adı: URBANEXT CENTRAL ASIA 2024**
**Tarixlər: 06 - 08 noyabr 2024-cü il,**
**Məkan: Astana (Qazaxıstan) IEC Expo Astana**
URBANEXT sərgi və konfransı Qazaxıstanda və bütün Mərkəzi Asiya regionunda Ağıllı Şəhər üçün yeni texnologiyaların tətbiqini təşviq edən platformadır.

**Müxtəlif ərazilərdə məcburi köçkün qəsəbələrindəki evlər təmir olunacaq – TENDER**

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Mənzil İstismar Departamenti açıq tender elan edir.
Elanda Bakı, Mingəçevir şəhərləri, Goranboy, Ağcabədi rayonları ərazisində salınmış məcburi köçkün qəsəbələrində fərdi yaşayış evlərinin və mənzillərin təmiri işləri nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) – Fariz Abbasov, Sektor müdiri

Email : fariz.abbasov@idp.gov.az

Əlaqə telefonu : +994124301530



## AZƏRBAYCAN RESPUBLİKASI QUBA RAYONU İCRA HAKİMİYYƏTİ TENDER ELAN EDİR.

Azərbaycan Respublikası Quba Rayonu İcra Hakimiyyəti Quba şəhəri 29-cu məhəlləsində yerləşən 3 mərtəbəli yaşayış binasının əsaslı təmiri işlərinin satın alınması tenderini elan edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Pənah Qurbanəliyev, Baş mühasib
Email: penah.qurbaneliyev@mail.ru
Əlaqə telefonu: +994503533220



**AZƏRBAYCAN MEMARLIQ VƏ İNŞAAT UNİVERSİTETİ TENDER ELAN EDİR.**

Azərbaycan Memarliq Və İnşaat Universiteti Azərbaycan Memarlıq və İnşaat Universitetinin 1 saylı tədris binasının, 3 saylı tədris binasının, köməkçi otağının və 4 saylı tədris binasının cari təmiri üzrə tender elan edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Vasif, Mühəndis
Email: servan_685@mail.ru
Əlaqə telefonu : 0125106431



## "AZTELEKOM" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ TENDER ELAN EDİR.

"Aztelekom" məhdud məsuliyyətli cəmiyyəti dam örtüklərinin əsaslı təmiri üzrə tender elan edilir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Əli Paşazadə, Mütəxəssis
Email: ali.pashazada@aztelekom.az
Əlaqə telefonu: 0123440000 (2215)



**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ TENDER ELAN EDİR.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti universitetin Sahil korpusunun əsaslı təmiri üzrə tender elan edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

İkram Aslanov, Satınalma və təchizat bölməsinin müdiri
Email: maliye.adpu@gmail.com
Əlaqə telefonu: 0124932384





**www.atmia.az**